

# Əzan - dini ifadə kimi



***Müsəlman dünyasında dünyaya gələn insanın ilk eşitdiyi səs - sonralar, bütün həyatı boyu onu müşayiət edən və son mənzilə yola salan - əzan səsi, əzan məfhumudur. Əzan islam dininin əsas prinsiplərini özündə ehtiva edir. Başqa sözlə desək, əzan islamın şüarı və müsəlman varlığının simvolu olaraq qəbul olunur. Yəni əzan tək namaza deyil, həm də islama çağırışdır.***

Mədinə dövrü islam dininin formalaşmasında mühüm bir rol oynamışdır və bu dövrdə dinin bir çox hökmləri əsasən Mədinə şəhərində təbliğ olunmuşdur. Məkkədə islam dini təqib olunduğu üçün namaz gizli və pərakəndə bir şəkildə qılınırdı. Lakin Mədinədə belə bir məcburiyyətin olmadığı üçün əhali sərbəst şəkildə ibadət edirdi. Buna görə də əhalini namaza vaxtında dəvət etmək zəruriyyəti ortaya çıxmışdır. Peyğəmbər (s.ə.v.) öz əshabı ilə bu məsələni müzakirə edərək, başqa dinlərdə olduğu kimi kilsə zəngindən, şeypurdan istifadə etmə fikrini rədd edir və ibadətə çağırış üçün insan səsini daha üstün tutur. Məhəmməd peyğəmbər (s.ə.v.) bu işi, gözəl səsə malik olan Bilal Həbəşə həvalə etmişdir. Bilal Həbəşi əzanı ilk dəfə olaraq 622-623-cü illərdə Mədinənin yüksək bir yerinə çıxıb, Əbdullah bin Zeydin öyrətdiyi əzanı yüksək və gözəl bir səslə vermişdir.

Əzan oxuyan adam müəzzin adlanır. Müəzzin gözəl və gur səsə malik bir insan olmalıdır. Müəzzin əzanı verərkən hündür bir yerdə (minarə) və üzü qibləyə durmalıdır. Əzan oxuyarkən müəzzin əllərinin ikisini də qulaqlarına qaldırmalı və ya sağ əlini qulağına qaldırıb sol əlini isə sabit yanında tutmalıdır.

Əzanın sözlərinə gəldikdə isə onun mətni budur. "Allahu Əkbər" (*"Allah təkdir" - 4 dəfə*)

"Əşhədü ən-lə iləhə illəllah" (*şəhadət edirəm ki, Allahdan başqa Tanrı yoxdur - 2 dəfə*)

"Əşhədü ən-Mühəmmədən rəsulullah (*şəhadət edirəm Məhəmməd Allahın elçisidir - 2 dəfə*)

"Əşhədü ən Əliyyən vəliyullah" (*şəhadət edirəm Əli onun vəlisidir - 2 dəfə*)

"Həyyə-alə's-sələh" (*haydı namaza - 2 dəfə*)

"Həyyə alə'l-fələh" (*haydı qurtuluşa - 2 dəfə*)

Əzanın musiqi ilə əlaqəsinə gəldikdə isə "Əzan, üsul və ölçü baxımından heç bir qəlibə girməyən və bəstələnməyən bir mətndir. Keçmişdən bəri bədahətən oxunmuşdur.

Əzanın nota alınması kimi çalışmalar edilmişsə də, rəğbət qazanmamışdır. Ancaq melodiya gedişi bir muğama uyğun olaraq oxunmuşdur".

"Dini mətnlərin qiraətində ənənəvi melodik intonasiyalardan istifadənin əsas səbəbi onların daha da dərindən dərk olunması yolunda yeganə vasitə kimi çıxış etməsidir.

Dini mətnlərin qiraətində musiqi reçitativ, adi deklamasiya, melodik oxuma halında özünü göstərir".

Quranda olduğu kimi əzanın da oxunma qaydaları və öz ədəbi vardır:

*1. Səs gözəlliyinə diqqət edərək lazımi dərəcədə musiqi elminə sahib olmalı;*

*2. Əzanı mümkün olduqca sadə və anlaşılan şəkildə oxumalı;*

*3. Təcvid qaydalarına diqqət edərək lazımsız və yersiz uzatmalardan qaçmalı;*

*4. Lazımi musiqi haqda məlumatı almadan və ya bir muğamdan digərinə keçməməli, keçəcəksə onların uyğun olmasına diqqət edilməli;*

*5. Nəfəs lazımi dərəcədə istifadə olunmalı, cümlələr kəsilmədən bir nəfəsdə bitirilməli;*

*6. Kontrolsuz və qulaqları rahatsızedici bağırmaqdan qaçmalı;*

*7. Əzana hansı muğamın hansı pərdəsində başlanılmışsa, yenə başlanılan muğamın başlanılan pərdəsində bitirməli".*

Dini mətnlərin qiraətində reçetativ və ya deklamasiya oxuma formasından istifadə olunur. Quranın və Əzanın reçitasiyasına həmişə böyük bir məna verilir. Gördüyümüz kimi musiqiyə aid hər bir şey ciddi şəkildə nizama salınmış və islamın yayılma çərçivəsində unifikasiya edilmişdir. Ərəblərin poetik yaradıcılığı və dini xütbələri bildiyimiz kimi yazılı deyil, şifahi xarakter daşıyırdı.

Digər tərəfdən biz bildiyimiz kimi əzan ərəbcə deyilir. "Çoxşaxəli ahənglilik ərəb dilinin xüsusiyyətlərindən, bir sıra mətn qanunauyğunluqlarından və digər faktorlardan meydana çıxır. Xatırladaq ki, ərəb dili ahəngli dillər sırasına aid edilir. Nitq tonları əsas və ikinci dərəcəli heca vurğularına uyğun səsyüksəkliklərinə ayrılır. Beləliklə, nitq ahəngliliyi şərtiliyə uyğun minimum "üç pilləli" (vurğusuz hecaları nəzərə alaraq) olur. "Vokal fonemi həmçinin səslərin uzunluqlarına görə bölünmüşdür - qısa, uzun və çox uzun hecalara ayrılır".

Dini oxumalarda musiqi və mətn vəhdət təşkil etdiyinə baxmayaraq, mətn aparıcı rol oynayır. Yəni mətn musiqinin ritmini müəyyənləşdirir. "Dini mətndə uzun hecalar musiqi ifadəsində ritmik variantların meydana gəlməsinə imkan yaradır. Bəzən melodiya bütövlükdə mətnin ölçüsü ilə uyğunluq yaratsa da, müəyyən mərhələdə buna öz əlavələrini, düzəlişlərini də daxil edir ki, bu da sözsüz, uzun hecalar hesabına baş verir".

Əzan Şərq təfəkkürünün "kapilyar" ideyalarının bariz nümunəsidir. Şərq fikrinin ideya əsası onun mövcud səslərin toxunmasını eşitməklə qəbul olunmasının təsviridir. Əzanın intonasiya əsasını, onun intonasiyadaxili quruluş qanunauyğunluğunu Qərb musiqi təfəkkürü ilə müqayisə etdikdə müəyyən çərçivə daxilində hərəkətin mövcudluğu fərqləndirici cəhət kimi vacib bir amildir. Əzanın melodik ideyasında hərəkətdə olan intonasiya təsvirinin müəyyən mərkəz, "nüvə" rolunu oynayan səs və ya interval mövcuddur ki, bu da öz növbəsində kiçik hissəciklərin qorunub saxlanılmasında böyük və əhəmiyyətli rol oynayır.

Ümumiyyətlə, şərq musiqi fikri müəyyən mənada "atom" prinsipinə tabedir. Çünki, musiqi ideyası, fikri inkişaf etdikcə digər fikri, intonasiyanı törədir. Əzanın melodik quruluşu və inkişafı müəyyən mənada təkrarlıq prinsipi ilə öz mütləq ideyasını təsdiq edir. İntonasion Şərq musiqi məntiqində hər bir sualın qarşısında cavabın mövcudluğu xüsusi rol oynayır. Çünki məhz cavab həmin qoyulan sualın həm təsdiqi, həm intonasion inkişafı, həm də onun arxitektonik cəhəti kimi zəncirvarilik qanunauyğunluğunu təşkil edir.

Bildiyimiz kimi Şərq təfəkkür tərzi (istər dini kəlamlar, istər dini ibadətlər və s.) özündə müəyyən mənada mütləq istinad və ya müraciəti xa-

rakterizə edir. Hətta islam dininin ilkin rəmzi olan əzanın intonasiya quruluşunda müəyyən bir səsdə qeybə, mütləq ideyaya, tanrıya hərəkət və ona müraciət prinsipi özünü büruzə verir. Məhz səs sədasının yuxarı istiqamətdə hərəkəti müsəlman mütləq ideyasını, əsasən tanrının böyüklüyünü təsdiq edir. Buna sübut olaraq "Allahu əkbər" (Allah böyükdür) ideyası musiqi avazı ilə vəsf olunur. Yuxarıda qeyd etdiyimiz kimi əzanın melodik strukturu, onun intonasiya xüsusiyyəti inkişaf və variantlılıq ilə səsləşir. Bu baxımdan əzanın melodik quruluşun olduğu kimi mövcudluğuna baxmayaraq müəzzinin (ifaçının) rolu əvəz olunmazdır. Beləki, melodik strukturun və eyni zamanda kompozisiya xüsusiyyətinin əsasında 4/1 tonların, bəzi mürəkkəb mikrointonasiya ifadələrinin, boğaz-hülqum texnikasının ifadəsi dini individuallıqdan başqa Şərq ifadə tərzinin əvəzolunmaz nümunəsidir. Bu Qərb musiqi təfəkkürü ilə müqayisədə və eyni zamanda əsrlər boyu bu günə qədər Qərbin müdaxilə edə bilmədiyi varlıqdır. Qeyd etmək lazımdır ki, boğaz-hülqum ifa tərzi (manerası) elə bir "alətdir" ki, ondan ancaq "Şərq dünyası" istifadə edə bilər. Bu prinsip əsasında elə xırda, demək olar ki, gözəgörünməz və hətta hər bir hazırlıqsız (apriyori) şəxs tərəfindən işlədilməz mikrointonasiyalar yaranır.

Yuxarıda qeyd etdiyimiz kimi, əzan ifaçılığı xüsusiyyətində mövcud olan xırdalıqlar onun əsas ideyasının, təfəkkür tərzinin həllində əvəzolunmaz rol oynayır. Müəzzin (müəyyən mənada ifaçı) bu avazı dərk edərək, ona sitayiş edərək oxuyur və eyni zamanda oxuyaraq sitayiş edir. Burada ilk növbədə nəzər diqqəti cəlb edən məqamlardan biri onun meditativ xarakterə malik olmasıdır. Bu intonasion xüsusiyyət öz daxilində ilahi ideyanı, müqəddəs kəlamı və onun qarşısında "ötürücü" rolunu oynayan şəxsin musiqi ifadə qabiliyyətinin köməyi ilə olan tamamlayıcı rolunu oynayır. Bu baxımdan ən son birləşdirici xətt musiqidir.

**Müqəddəs kəlam + müəzzin = intonasiya**

Yəni yuxarıda verilmiş müəyyən düstur bizə müqəddəs kəlamın insan ideyasında mövcudluğunu, başqa sözlə desək onun səs-ifadə həllində ümumi bir nəticəni, yəni musiqi kompozisiyasını verir. Səs - ifadə prinsipi daxilində çox mürəkkəb, hətta demək olar ki, improvizə xarakterli mikrointonasiyalar mövcuddur ki, burada yalnız ifaçının şəxsi hazırlıq səviyyəsi, musiqi-kəlam duyumu böyük rol oynayır. Burada improvizə etmək xüsusiyyəti zəngin fantaziya daxilində və bilavasitə variantlılığa meyllilikdə özünü göstərir.

Əzan namaza çağırış olduğu üçün, bir gündə beş dəfə qılınan namazda 17 rükət namaz oxunar. Namaz qılınmamışdan əvvəl hökmən əzan oxunmalıdır. Ayrı-ayrı şəxslərin qıldığı namaz vaxtı əzanı avazla oxumağa ehtiyac olmadığı üçün dindarlar onu reçitativ şəkildə oxuyur. Birinci namaz səhər sübh çağı qılınan zaman bir əzan iki rükət, günorta isə ikinci namaz qılınan zaman bir əzan dörd rükət oxunar. Bəzi vaxtlar günorta namazına çatmayan adamlar günorta namazı ilə əsr namazını birləşdirərkən iki əzan səkkiz rükət oxuyur. Dördüncü namaz şam namazı adlanır ki, bu vaxt bir əzan, dörd rükət oxunar.

Beşinci son namaza xüftə namazı deyilir ki, bu zaman bir əzan üç rükət oxunur. Məsciddə qılınan namazlardan qabaq oxunan əzanlar avaz üstündə ifa edilir. Əzanlar həmçinin məscidin minarəsindən də oxunar. Bu zaman mayəsi zil olan muğam intonasiyalarından, avazlardan geniş istifadə edilir. Adətən bu avazlar Bayatı türk, Şurun zil şöbələrinin və Şahnaz-muğam intonasiyaları üzərində qurulur.

***Yuxarıda verilmiş qısa anlayış əsasında belə bir nəticəyə gəlmək olar ki, müasir dövrümüzdə səslənən əzanın musiqi nümunələri, öz çərçivəsində müəyyən elmi mahiyyətə malik olub və eyni zamanda dini-tarixi aspektə, öz nəzəriyyəsinə, elmi dəyərinə malikdir.***

*Lətifəxanım ƏLİYEVA*